Təhsil islahatı fəaliyyətdədir

Təhsil sistemində keyfiyyət təminatının metodoloji məsələləri

Abdulla Mehrabov
professor, Rusiya Dövlət Təhsil Akademiyasının
həqiqi üzvü, əməkdar müəllim

İnsan, keyfiyyət və kəmiyyət dəyişmələri əsasında biliksizlikdən kamilliyə doğru inkişaf edir. Dünya mövcüdatının ən şərəflisi insandır.

Nəsirəddin Tusi

Açar sözlər: *keyfiyyət, keyfiyyətin menecment sistemi, marketinq, keyfiyyətin qiymətləndirilməsi, keyfiyyət sisteminin modeli, keyfiyyətin alqoritmlər sistemi, keyfiyyətin idarəolunmasının metodologiyası, rəqabətəqabillik.*

Ключевые слова: *качество, менеджементовская система качества, маркетинг, оценивание качества, модель системы качества, система алгоритмов качества, методология управления качеством, конкурентоспособность.*

Key words: *quality, quality assurance control, marketing, quality estimation, quality system model, algorithms system of quality, methodology of quality management, competitiveness.*

Təhsil sistemində, son illərdə tədris-təlim prosesində keyfiyyət problemləri ilə bağlı məsələlərin metodoloji əsaslarının işlənilməsinə, ümumiyyətlə keyfiyyət və onun idarəolunmasına olan münasibətlər öz aktuallığını daha da artırmış və bu problem məsələlər sahəsində həm fundamental, həm də tətbiqi xarakterli araşdırmaların səmərəliliyi artmışdır. Keyfiyyət ümumiyyətlə, istənilən prosesin (obyektin) müəyyənliyini bildirən fəlsəfi kateqoriya olub, onun xassələrinin məcmusunda təzahür edən obyektiv və ümumi (bütöv) xarakteristikasıdır. Başqa sözlə, keyfiyyət işlənilən prosesin (və ya obyektin) elə bir müəyyənləşdiricisidir ki, onun sayəsində proses (obyekt) başqa proses kimi yox, məhz tələb olunan proses kimi çıxış edir və digər proseslərdən (obyektlərdən) fərqlənir. Təhsil sahəsində keyfiyyət, tədris-təlim prosesinin nəticələrinə uyğun əvvəlcədən müəyyən edilmiş normativlərə (standartlara) müvafiq öyrənənlərin səviyyəsini, ümumi halda isə təhsil sisteminin durumunu müəyyənləşdirən əsas xarakteristika kimi qəbul edilir. Təhsilin nəticələri təkcə öyrənənin təhsilin müəyyən pilləsini başa vurduqda yiyələndiyi bilik, bacarıqların səviyyəsi deyil, həm də onların dünyaya, cəmiyyətin inkişafına münasibətlərini göstərən şəxsi keyfiyyətlərdir. Başqa sözlə, öyrənənin şəxsi təhsil keyfiyyətini, onun müəyyən səviyyədə bilik və bacarıqlar sisteminə malik olmasından başqa, eyni zamanda təbiət, mədəniyyət və sosial həyat elementlərinin mənimsənilmə səviyyəsi kimi də başa düşmək lazımdır.

Təhsilin keyfiyyəti, təhsil sisteminin əsas xarakteristikası olub, real əldə olunmuş təlim nəticələrinin normativ sənədlərin tələblərinə və gözlənilən nəticələrə hansı səviyyədə uyğunluğunu müəyyənləşdirir. Keyfiyyətin idarəolunması təhsillə bağlı məzunların təlim nəticələrini və sosiallaşmasını, onların cəmiyyətdə təlim prosesinə qoyulan tələblərə cavab vermə səviyyəsinə oriyentasiyasını və fəaliyyət vərdişlərinə yiyələnməsini nəzərə alan və keyfiyyətlə bağlı kompleks məsələlərin həlli səviyyəsini müəyyən edən əsas parametr hesab edilir.

Təhsildə keyfiyyətin qiymətləndirilməsi təhsilalanların təlim nailiyyətlərinin, təhsil proqramlarının (kurikumların), təhsil müəssisələrində tədris-təlim prosesinin dövlət təhsil standartlarının və digər normativ aktların tələblərinə uyğun həyata keçirilməsi nəticəsində qazanılmış nailiyyətlərin səviyyəsini müəyyən etməyə imkan verən proses kimi dəyərləndirilir. Respublika səviyyəsində təhsildə keyfiyyətin qiymətləndirilməsi dövlət və ictimai qurumların nümayəndələrinin iştirakı ilə diaqnostik və summativ qiymətləndirmə prosedurlarının tələblərinə müvafiq həyata keçirilir. Qeyd etmək lazımdır ki, keyfiyyətin idarəolunma sisteminə idarəetmənin müxtəlif modelləri, qiymətləndirmə mexanizmləri, qiymətləndirmənin analitik və tətbiqi xarakterli məlumat sistemləri daxil edilir.

Deməli, təhsildə keyfiyyət öyrənənlərə verilən bilik, bacarıq və qazanılmış vərdişlərin müvafiq dövlət standartlarına və cəmiyyətin tələblərinə hansı səviyyədə uyğunluğunu müəyyənləşdirən və inkişafa xidmət edən başlıca kateqoriya kimi dəyərləndirilməlidir [1,3,6]. Araşdırmalar göstərir ki, son illərdə dünyada keyfiyyətin təmin olunması ilə bağlı nəzəri tədqiqatların (araşdırmaların) sayının artmasından başqa, təhsildə keyfiyyətin idarəolunması ilə bağlı çoxlu sayda tətbiqi xarakterli mürəkkəb məsələlərin həllində də maraqlı nəticələr əldə edilmişdir. Təhsil müəssisələrində son illərdə akkreditasiyanın həyata keçirilməsi, Azərbaycanın Bolonya prosesinə qoşulması və təhsil sistemində keyfiyyətin idarəedilməsinin yeni demokratik modellərinin tətbiqinin genişləndirilməsi təhsilimizin uğuru kimi qiymətləndirilməlidir. 2005-ci ildə Bolonyada müzakirələr əsasında milli təhsil sistemlərində keyfiyyətin təmin olunması üçün fəaliyyət prosesində aşağıdakı məsələlərin əsas götürülməsi tövsiyə edilmişdir [1]:

- təhsil müəssisələrinin problemlə bağlı öz məsuliyyətlərini qabaqcadan müəyyən etmələri;
- təhsil proqramlarının (kurikulumların) qiymətləndirilməsinə daxili və xarici qiymətləndirmənin daxil edilməsi, öyrənənlərin bu proseslərdə iştirakının və alınmış nəticələrin çap olunmasının təmin edilməsi;
- beynəlxalq tərəfdaşlıq və təhsil sahəsində ümumavropa məkanının yaradılmasında əməkdaşlığın genişləndirilməsi.

Problemin həllinə belə münasibətin yaranması göstərir ki, vahid bir metodologiyaya əsaslanan və müvafiq praktik məsələnin həllinə yönəlmiş yeni elmi istiqamətlər aktiv inkişaf etməyə başlasa da, real vəziyyətin və çap olunmuş nəticələrin təhlili tədqiq olunan məsələlərin metodoloji əsasları ilə bağlı araşdırmaların intensiv ləşdirilməsinə böyük ehtiyacın olduğunu önə çəkir. Araşdırmalar göstərir ki, ilk növbədə keyfiyyətin idarəolunmasının metodologiyası ilə məşğul olan tədqiqatçıları üç qrupa bölmək olar:

➢ Birinci qrupa, ümumən bütün pro-

seslərin tənzimlənməsində birbaşa iştirak edən və keyfiyyət menecmenti kimi başa düşülən "Total quality management" (TQM) ("keyfiyyətin idarəedilməsi", "ümumilikdə keyfiyyətin idarəolunması ilə məşğul olan menecment sistemi") konsepsiyasını və keyfiyyətin idarəolunması ilə bağlı müvafiq beynəlxalq standartları əsas kimi qəbul edənlər daxil edilir. Beynəlxalq standartlarda keyfiyyət menecmenti sistemində "keyfiyyətə zəmanət", "keyfiyyətin idarəedilməsi" və "keyfiyyətin yaxşılaşdırılması" kimi anlayışların mənasının müəyyənləşdirilməsi göstərir ki, bunların hər biri keyfiyyət probleminin həllində xüsusi rol oynayır. Bu anlayışların (terminlərin) qəbulu kontekstində keyfiyyətin idarəolunması metodologiyasının ümumsistem prinsiplərini aşağıda göstərilmiş sxemdəki kimi qruplaşdırmaq məqsədəmüvafiq hesab edilməlidir.

Sxem 1.



Sxemdən görünür ki, bu prinsiplərin hər biri keyfiyyət menecmenti sisteminin fəaliyyətində xüsusi rol oynayır, keyfiyyətin idarəolunmasının ümumsistemində bütövlüyü təmin edir və bir-birilə həm birbaşa, həm də əks əlaqənin yaranmasında əvəzolunmaz məna daşıyır.

Şəkil 1-də müasir TQM sisteminin konsepsiyasının struktur elementləri və onların qarşılıqlı əlaqələrini xarakterizə edən tərkibin iç açılışı verilmişdir [11].

Şəkildən görünür ki, TQM sisteminin konsepsiyası vasitəsilə keyfiyyətin idarəedilməsinin reallaşdırılma strategiyası təhsil müəssisələrində menecmentin fəaliyyətinin yenidən qurulmasını və idarəetmə mədəniyyətinin tamamilə dəyişdirilməsini tələb edir. Qeyd etmək lazımdır ki, TQM sisteminin konsepsiyasından təhsil müəssisələrində istifadə zamanı bütün əməkdaşlar fəaliyyətin səmərəliliyinin artırılması və tənzimlənməsi üçün prosesdə aktiv iştiraka cəlb olunurlar. Deməli, TQM sisteminin konsepsiyasına əsaslanaraq keyfiyyətin idarəolunmasının ümumsistemindən istifadə aşağıdakı problemlərin həllində xüsusi əhəmiyyət daşımalıdır:

- keyfiyyət sisteminin konsepsiyasında nəzarətin kifayət qədər az olması ilə bağlı məsələlərin həllində;
- tədris-təlim prosesinin məzmunu və təşkili ilə bağlı standartların hazırlanma-sında;
- keyfiyyətin təmin olunma səviyyəsindən kənaraçıxma hallarının vaxtında qabağının alınması üçün idarəolunma sisteminin təkmilləşdirilməsində;
- keyfiyyətin idarəedilməsinin təkcə keyfiyyətə xidmət edənlərin deyil, həm də bütövlükdə işçi heyətin vəzifəsi olduğu ilə bağlı konsepsiyanın formalaşdırılmasında;
- pedaqoji heyətin təhsidə yüksək keyfiyyətə nail olmağa motivasiyasının gücləndirilməsində;
- təhsildə keyfiyyətin təmin olunmasında qüsursuz, nöqsansız pedaqoji prosesin qurulmasına səmtləşmənin (oriyentasiyanın) təşkilində;
- təhsil müəssisəsində səmərəli tədris-təlim prosesinin qurulmasında həlledici rol oynayan keyfiyyət və onun idarəolunması ilə bağlı konsepsiyanın tələblərinin yerinə yetirilməsində.

Beləliklə, yuxarıda göstərilənlər əsasında keyfiyyətin idarə olunmasının müasir sistemləri TQM konsepsiyanın əsas müddəalarına əsaslanaraq həyata keçirilməlidir.


TQM
Keyfiyyətin idarəedilməsi nin fəlsəfəsi
•"kayzen (yaxşılığa doğru inkişaf) və "kayrio (fasiləsiz təkmilləşmə) prinsipləri [11].
Müəssisənin dəyər göstəriciləri
•vətənpərvərlik tərbiyəsi;
•keyfiyyətin motivasiyası;
•"Səriklik, paya sahib olma metodunun tətbiqi.
Menecment sistemi
•menecmentin bilavasitə metodu;
•"xarici menecmentin fəaliyyətinin əsas prinsipləri.
Keyfiyyətə nəzarət sistemi
• qüsursuz, nöqsansız işləmə prinsipi;
• keyfiyyətə nəzarət əsasında özünənəzarət prinsipi.
Məntiqlilik, qanunauyğunluq
•məntiqliliyin fəlsəfəsi;
•sıfır ehtiyatla işləmə;
•TVS (vaxtında işin yerinə yetirilməsi) sistemi.
İdarəetmənin strukturu
•xüsusi xidmət sahəsi ayırmadan keyfiyyətin təşkili;
• "kayreçu (iyerarxik nizamasalma, qayda) prinsipinin tətbiqi [11].
Marketinq
•daxili və xarici istehlakçının fəlsəfəsi;
•Kano konsepsiyasının tədbiqi [11].
Sosial məsuliyyət
•ətraf mühitə münasibət və onun qorunması;
•istehlakçının qorunmasına qayğının təşkili.

Şəkil 1. Müasir TQM sisteminin konsepsiyası

*2

➢ İkinci qrupa, mövcud istiqamətlər çərçivəsində, çap olunmuş materiallar əsasında keyfiyyətin idarəolunması problemini müxtəlif mövqedən (aspektdən) qəbul edənlər daxil edilir. İlk növbədə bu mövqelər keyfiyyətin ölçülməsinə olan münasibətlərlə bağlıdır. Bu qrupa daxil olan müxtəlif tədqiqatçılar tərəfindən "qiymətləndirmədə bərabərlik" ideologiyasına əsaslanan "qərb" yanaşmasına", bu problemlə bağlı müxtəlif ekspert modellərinə, tenokratik yanaşmalara üstünlük verilir [2, 4]. Bu halda tədqiqatlar "keyfiyyət menecmenti sistemlərinə", "keyfiyyətin monitorinqi sistemlərinə", "nəzarət sistemlərinə" əsaslanaraq aparılır, ancaq "keyfiyyət" anlayışından müxtəlif dəqiqləşmələrlə istifadə edilir. Belə dəqiqləşmələrə

- təhsil müəssisələrinin keyfiyyətini;
- təhsil fəaliyyətinin keyfiyyətini;
- mütəxəssis (müəllim) hazırlığının keyfiyyətini;
- menecment marketinq fəaliyyətlərinin keyfiyyətini daxil etmək məqsədəmüvafiq hesab edilir.

➢ Üçüncü qrupa, keyfiyyətin idarəolunması ilə bağlı adekvat olmayan sistemlərdən istifadənin tərəfdarlarını, yəni keyfiyyətin idarəolunmasını bir başa müəssisənin maddi-texniki bazasının durumu və "inkişaf" etmiş ölkələrdə istifadə olunan "humanitar" yanaşmalara əsaslanaraq müəyyənləşdirməni (ölçmə metodlarından imtina etməklə) təklif edən tədqiqatçılar daxil edilir [5,8].

Qeyd etmək lazımdır ki, hər üç qrupa daxil olan mütəxəssislər tərəfindən çoxlu sayda araşdırmalar aparılmış və müəyyən nailiyyətlər əldə edilmişdir. Son illərdə bu problemlər üzrə tədqiqatların intensivliyi artmış və müvafiq koordinasiya işləri həyata keçirilmişdir. Bundan başqa, müxtəlif tədqiqat qrupları arasındakı qarşılıqlı əlaqələrin tənzimlənməsi və daha səmərəli əlaqələrin formalaşdırılması üçün 2003-cü ildə Ufa şəhərində təhsil sistemində keyfiyyət, onun idarəolunması problemlərinə həsr edilmiş beynəlxalq konfrans xüsusi rol oynamış və müəyyən edilmişdir ki, bu qruplar tərəfindən yerinə yetirilən tədqiqatlar, təəssüflər olsun ki, bir-birindən tədric olunmuş formada aparılır. Bunların daxili səbəblərinə dərindən müdaxilə edilmədən, konfransda belə qənaətə gəlinmişdir ki, təhsil sistemin modernləşdirilməsi ilə bağlı qəbul olunmuş qərarların Bolonya prosesinin tələblərinə müvafiq reallaşdırılması üçün ölkə üzrə "Milli keyfiyyət sistemi"nin formalaşdırılmasının böyük elmi, pedaqoji-psixoloji əhəmiyyəti vardır. Bu sistemə öyrədənlərin, öyrənənlərin, valideynlərin, həm də pedaqoji prosesin bütün iştirakçılarının daxil edilməsi məqsədəmüvafiq sayılmalıdır. Deməli, təhsildə keyfiyyətin idarəolunması və monitorinq və qiymətləndirmə problemlərinin metodoloji məsələləri sahəsində tədqiqatların spektri genişləndirilməli və intensivləşdirilməlidir.

Şəkil 2-də təhsil müəssisəsində (TM) keyfiyyət sisteminin (KS) modeli verilmişdir. Şəkildən görünür ki, keyfiyyət və onun idarəolunması ilə bağlı sistemin strukturu və onun elementləri arasındakı qarşılıqlı əlaqələr, qarşılıqlı münasibətlər nə qədər mürəkkəb xarakterlidir. Son illərdə təhsildə keyfiyyət probleminin aktuallaşması da, məhz ümumilikdə "keyfiyyətin fəlsəfəsi"nin yenidən formalaşdırılması və inkişafı ilə bağlıdır. Belə fəlsəfə çərçivəsidə ənənəvi keyfiyyət anlayışı, nəticələrin təhsil standartlarına uyğunluq dərəcəsinin müəyyən edilməsinin, eyni zamanda təhsil nəticələrinin istehlakçının hansı səviyyədə tələblərinin ödənilməsinin göstəricisinə çevrilir. Ona görə də, bu kontekstdə XXI əsrdə təhsil müəssisələrində (xüsusi halda ümumtəhsil məktəblərində) keyfiyyət anlayışına məqsəd və

nəticələrin uyğunluğunu, eyni zamanda tədris-təlim prosesinin təşkili səviyyəsini müəyyənləşdirməyə imkan verən əsas xarakteristik parametr kimi baxılır [7, 10]. Bu halda təhsil müəssisələrində tədris-təlim prosesinin idarəolunması probleminin həlli pedaqoji-psixoloji və informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, innovasiya fəaliyyəti ilə bağlı proqramların reallaşdırılması nəticəsində səmərəli yerinə yetirilə bilər. Kompyuter proqramları vasitəsilə öyrənənlərin cari və yekun mənimsəmə səviyyəsinin müntəzəm müəyyən edilməsi, onun müntəzəm izlənilməsi keyfiyyətin idarəedilməsi ilə bağlı aşağıdakıların müəyyənləşdirilməsinə imkan verir [12]:

- hər bir öyrənənin, sinfin və ya siniflər qrupunun bütün fənlər üzrə (və ya bir fəndən) təlim fəaliyyətinin nəticələrinin tədris-təlim prosesinin istənilən səviyyəsində qiymətləndirilməsi;
- öyrənənlərin təlim nailiyyətlərinə görə sinifdə nisbi yerlərin müəyyənləşdirilməsi;
- aşağı və yükək təlim göstəricilərinə malik öyrənənlər qrupunun seçilməsi;
- əvvəlcədən müəyyən edilmiş parametrlərə əsasən qrupların müqayisəli təhlilinin aparılması;
- seçilmiş qrupun və ya siniflər qrupunun ayrı-ayrı fənlər üzrə təlim nəticələri əsasında öyrədənin (müəllimin) işinin keyfiyyət göstəricilərinin qiymətləndirilməsi və bunların sinfin digər müəllimlərinin fəaliyyəti ilə müqayisəli təhlilinin aparılması;
- təlim nəticələrinin dəyişmə dinamikasının ilkin təhlili və izlənilməsi.


Təhsildə keyfiyyətin təmin olunmasında maraqlı tərəflər
Maraqlı tərəflərin tələbləri:
• akkreditasiya və lisenziyalaşmaya qoyulan tələblər;
• dövlət standartlarının tələbləri;
• təhsil fəaliyyətinin nəticələrindən istifadə edən alıcıların (müştərilərin, istehlakçıların) tələbləri.
Təhsil müəssisəsində keyfiyyət sisteminə rəhbərlik edənin məsuliyyəti və iş prinsipləri
Təhsil müəssisəsində proseslərin gedişinin təmin olunması və ehtiyatlar üzrə menecment
Təhsil müəssisəsində ölçmələr, təhlil və keyfiyyətin yaxşılaşdırılması sahəsində fəaliyyətlər üzrə menecment
Təhsil müəssisəsində keyfiyyət sisteminin əsas prosesləri üzrə menecment
Təhsil müəssisəsi haqqında ictimaiyyətin məlumatlandırılması üzrə menecment
Təhsil müəssisəsi fəaliyyətinin nəticələri
Təhsildə keyfiyyətin təmin olunmasında maraqlı tərəflər
Maraqlı tərəflərin tələblərinin təmin olunması

Şəkil 2. Təhsil müəssisəsinin (TS) keyfiyyət sisteminin (KS) modeli

Qeyd etmək lazımdır ki, təhsilin, tədris-təlim prosesinin keyfiyyəti dedikdə, qazanılmış biliklərin keyfiyyət səviyyəsindən başqa, təhsilalanlarda (öyrənənlərdə) davamlı dərketmə motivasiyasının formalaşmasının, onun həyatının müxtəlif sahələrinin inkişafının təmin olunma səviyyəsinə də üstünlük verilməli və bu məsələlərin həllində psixometrik testləşməyə xüsusi yer ayrılmalıdır. Belə testləşmə təhsilalanın intellektual inkişafının dəyişmə trayektoriyasını izləməyə və proqnozlaşdırmaya geniş imkanlar açır. Bu problemlərə pedaqoji ədəbiyyatda müxtəlif münasibətlər vardır. Məsələn, tanınmış pedaqoq alimlərdən M.Potaşkin və A.Moiseyevin əsərlərində təhsilin keyfiyyəti məqsəd və nəticələrin nisbəti kimi müəyyənləşdirilərək, məqsədin (nəticələrin) əməliyyat formasında verilməsi və yalnız öyrənənin potensial inkişaf zonasında proqnozlaşdırılması ideyası irəli sürülmüş və bunlara üstünlük verilmişdir [9,13]. Bizim fikrimizcə, psixoloji testləşmənin köməyi ilə təhsilalanın potensial imkanlarının və tədris fəaliyyətində əldə etdiyi real nəticələrin nisbəti, öyrədənin (müəllimin) konkret öyrənənlə (təhsilalanla) apardığı işin effektivliyini qiymətləndirməyə imkan verir. Əldə olunmuş nəticələr əsasında müəllim, təhsil müəssisəsinin rəhbərliyi və psixoloqla birlikdə kənaraçıxmaların səbəbləri vaxtında araşdırılmalı və müvafiq tədbirlər görülməlidir. Nailiyyətlərin aşağı düşməsinə səbəb olan amilləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- intellektual inkişafın səviyyəsinin kifayətedici olmaması;
- sosial mühitin müasir tələblərə kifayət qədər cavab verməməsi;
- tədris fəaliyyətinə marağın azalması;
- tədris planlarına daxil edilmiş bəzi yeni fənlərin mənimsənilməsində mövcud olan çətinlikləri;
- bəzi siniflərin ümumi intellektual səviyyəsinin aşağı olması;
- bəzi təhsilalanların ümumi mənimsəmə səviyyəsinin qənaətedici olmaması və s.

Təəssüflər olsun ki, təhsilverənlərin (müəllimlərin) hamısı təhsilalanlarda sərbəst təfəkkür fəaliyyətinin inkişafı; məqsədə çatmaq üçün təhsilalanların hərəkətlərinin stimullaşdırılması; öyrənənlərin təhsillik səviyyəsinin effektiv diaqnostikasının aparılması; əldə olunmuş nəticələrin təhsilalanlarla birgə ekspertizasının aparılması; təhsilalanların tədris fəaliyyətinin korrektə edilməsi üçün münasib şəraiti yarada bilmirlər. Bu məsələlərin səmərəli həlli üçün öyrədənin (müəllimin) fəaliyyətinin alqoritmi hazırlanmalı, öyrənənlərin təfəkkür və yaradıcılıq qabiliyyətlərinin; universal biliklərin, bacarıqların və vərdişlərin bütöv sisteminin; sərbəst fəaliyyətin və şəxsi məsuliyyətin formalaşdırılması üçün tələb olunan şərait yaradılmalı və aşağıdakılar mütəmadi olaraq yerinə yetirilməlidir:

- öyrənənlərin (təhsilalanların) dərketmə qabiliyyəti və imkanlarının qabaqcadan müəyyən edilməsi;
- diaqnostikanın məqsədlərinin müasir tələblər baxımından dəqiqləşdirilməsi;
- diaqnostikanın məzmununun, forma və metodlarının müəyyən edilməsi;
- nəticələrin təhlili, qiymətləndirilməsi, ümumiləşdirilməsi və sistemləşdirilməsinin həyata keçirilməsi;
- təhsilalanlarda qazanılmış biliklərin keyfiyyət sisteminin formalaşdırılması üzrə qərarların işlənilməsi;
- diaqnostikanın nəticələri ilə təhsilalanların və valideynlərin mütəmadi tanış edilməsi;
- əldə olunmuş nəticələr əsasında tədris-təlim prosesində müəyyən dəyişikliklərin aparılması.

Bunlardan başqa öyrədənin (müəllimin) monitorinq vasitəsilə təhsilalanların əldə etdiyi nəticələrin inkişafının, ümumilikdə onların fəaliyyətinin qiymətləndirilməsi sahəsində yerinə yetirdiyi işlərin mütəmadi izlənilməsi həyata keçirilməlidir. Bunun əsasında öyrədən-öyrənən (müəllim-şagird) qarşılıqlı münasibətlərinin fasiləsiz olaraq öyrənilməsi nəticəsində:

- təhsil standartlarının tələblərinin yerinə yetirilməsi;
- öyrənənin (təhsilalanın) tədris fəaliyyətinin səviyyəsi;
- öyrənənlərin attestasiyasının nəticələrinin qiymətləndirilməsi;
- öyrənənlərin tərbiyəlilik və inkişaf səviyyəsinin təmin olunması həyata keçirilir.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, təhsil müəssisəsində, eyni zamanda keyfiyyətin idarəedilməsinə kollektivdə müsbət psixoloji mühitin formalaşdırılmasının; inzibati nəzarətin ağırlıq mərkəzinin nəzarətin kollektiv formasına və özünənəzarətə keçidinin; keyfiyyətin kollektiv nəzarət siteminin yaradılmasının həlledici təsiri vardır. Bazar iqtisadi münasibətləri şəraitində təhsil xidmətlərinin yenidən təşkili, öyrənənlərin mənəvi və intellektual hazırlığına qoyulan tələblərin yeniləşdirilməsi, təhsil müəssisələrinə maliyyələşmə müstəqilliyinin verilməsi yeniləşən təhsil müəssisələrində keyfiyyətin idarəolunması probleminin həllində xüsusi əhəmiyyət daşıyır.

Son illərdə aparılmış araşdırmaların nəticələri və "təhsildə keyfiyyət" anlayışının məna aspektləri, təhsil müəssisələrində keyfiyyətin idarəedilməsinin aşağıdakı proqramlarının metodoloji əsaslarının formalaşdırılmasına imkan vermişdir [7,14,15]:

- bazar iqtisadi münasibətlərinin bərqərar olduğu şəraitdə təhsilin keyfiyyəti müəssisənin dövlət səviyyəsində at testasiya və akkreditasiyasının nəticələri ilə məhdudlaşmayıb, bütövlükdə bu problemlərin təhsil müəssisəsinin öz fəaliyyəti ilə bağlı olmasına dair proqram;
- təhsilin keyfiyyətinin, təhsil müəssisəsində tədris-təlim prosesinin, təhsilalanların sosial-psixoloji müdafiəsinin, öyrədənlərin peşəkarlıq səviyyəsinin mütəmadi yüksəldilməsinin, müəssisənin maddi-texniki bazasının yaxşılaşdırılması ilə bağlı proqram;
- təhsildə qazanılmış və planlaşdırılmış nəticələrin müqayisəli təhlili əsasında keyfiyyətin səviyyəsinin müəyyənləşdirilməsi ilə bağlı proqram;
- istehlakçının sorğusu və əsas fəaliyyət sahələrinin koordinasiyası əsasında keyfiyyətin çevik idarəolunma sisteminin yaradılması ilə bağlı proqram.

Müəyyən edilmişdir ki, təhsildə keyfiyyətin idarəolunması proqramlarında, eyni zamanda qarşılıqlı əlaqədə olan müxtəlif fəaliyyətlərin məzmunu da nəzərə alınmalıdır. Bu işlərin əsas istiqamətləri təhsil müəssisəsinin aşağıdakı fəaliyyətləri vasitəsilə müəyyənləşdirilməlidir:

- təhsil müəssisəsinin əhatəsinin sosioloji tədqiqi;
- təhsil müəssisəsi ilə potensial istehlakçı arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinin təşkili;
- təlimin məzmununun, tədris-təlim prosesinin metodiki və müxtəlif tədris vasitələri ilə təminatının planlaşdırılması;
- tədris-təlim prosesinin kadr təminatının yaxşılaşdırılması;
- müxtəlif səviyyəli modul sistemli təlimin və təhsilalanların keyfiyyətli təhsilə motivasiyasının təşkili;
- təhsildə keyfiyyətə nəzarət sisteminin yeni metodlarının işlənilməsi. Bu fəaliyyət isqamətlərinin hər biri kifayyət qədər ehtiyac duyulan hərəkətlər toplusundan ibarət olub, onların hər

birinin səmərəli yerinə yetirilməsi təhsil-alanların keyfiyyətli təhsillə təmin olunmasına geniş imkanlar açır. Belə fəaliyyətlər nəticəsində bütün maraqlı tərəfləri maraqlandıran məsələlər əhatə olunur və keyfiyyətin təmin olunma modeli səmərəli tətbiqini tapır, nəticədə təhsilalanlar əldə etdikləri biliklərin real həyat situasiyalarında tətbiqi üçün geniş imkanlar əldə edirlər. Beləliklə, keyfiyyətin və onun idarəolunması proqramının metodoloji təminatına aşağıdakı fəaliyyətləri də əlavə etmək olar [15,16]:

➢ "başlanğıc şərt ↔tədris-təlim prosesi ↔ nəticələr" sxemi üzrə pedaqoji prosesin durumunun təhlil olunması;

➢ təhsil müəssisəsində tədris-təlim prosesinə daxil edilmiş hər bir fənnin məqsədlərinin müəyyənləşdirilməsi;

➢ təhsil müəssisəsinin fəaliyyət göstərdiyi bölgənin (rayonun) inkişafına təsirinin öyrənilməsi və infrastrukturun, tədris planlarının, təhsil proqramlarının (kurikulumların) tələblərinə müvafiq təhsilin məzmununda müvafiq dəyişikliklərin aparılması;

➢ tədris prosesinin gedişinin və nəticələrin cari və yekun diaqnostikası və onun elmi-metodik təminatı sisteminin yaradılması;

➢ məlumatların toplanması, informasiya selinin işlənilməsi və informasiyanın təhlili sisteminin təkmilləşdirilməsi, bunların əsasında idarəetmə ilə bağlı müvafiq qərarların qəbul edilməsi;

➢ başqa təhsil müəssisələri ilə səmərəli qarşılıqlı əlaqələrin yaradılması üçün öyrədənlərdən (müəllimlərdən) ibarət yaradıcı qrupların formalaşdırılması;

➢ idarəedici şuranın vasitəsilə istehlakçılarla təhsil proqramlarının (kurikulumların) məzmununun və onun praktiki tətbiqi sahələrinin razılaşdırılması.

Qəbul olunmuş terminologiyaya əsasən keyfiyyətin idarəolunma metodları təhsildə tələb olunan keyfiyyəti təmin etmək üçün prosesə tədbiq edilən müxtəlif vasitə və qaydalar toplusunun məcmusudur [1,14]. Keyfiyyətin idarəolunma metodlarını təşkilati, sosial-psixoloji, iqtisadi və təşkilati-texnoloji kimi qruplara bölmək olar. Şəkil 3-də bu metodların qarşılıqlı əlaqələri verilmişdir.



Şəkil 3. Keyfiyyətin idarəolunma metodlarının təsnifatı

Keyfiyyətin idarəolunmasının bu metodları məqsədyönlü təsir vasitəsi kimi müvafiq təhsil müəssisələrində yaradılmış altsistemlərin idarəedilməsini də reallaşdırmağa imkan verir və ümumi halda keyfiyyətin idarəolunma məsələsi aşağıdakıların yerinə yetirilməsinə gətirir:

- keyfiyyət sahəsində məqsədin düzgünlüyünün müəyyən edilməsi;
- bütün ehtiyat mənbələrindən optimal istifadə edərək məqsədin yerinə yetirilməsi;
- pedaqoji prosesin iştirakçıları arasında müvafiq qarşılıqlı münasibətlərin (mədəni dəyərlərin) müntəzəm təmin və müdafiə olunması;
- daimi təkmilləşdirilmənin həyata keçirilməsi.

Məlumdur ki, insan (idarəedən) idarəetmənin təşkilati sistemində keyfiyyətin idarəolunması problemləri ilə bağlı aparıcı şəxs (şəxsiyyət) hesab edilir. Praktik olaraq keyfiyyətin idarəolunması insan faktorunun iştirakı ilə başlayır və tamamlanır, başqa sözlə keyfiyyətin idarəolunma sistemində insan həm subyekt, həm də obyekt kimi çıxış edir. Kamil insan (şəxsiyyət) mürəkkəb bir varlıq kimi müvafiq qərarların qəbul edilməsində, yeni təlim və İKT texnologiyalarının işlənilməsində, tədris-təlim prosesi ilə bağlı bütün problem xarakterli məsələlərin həllində, yeni maşın və avadanlıqlara qulluq edilməsində və başqa məsələlərin həllində həlledici rol oynayır. Ona görə də keyfiyyətin idarəolunma nəzəriyyəsinin əsas prinsipləri kamil insana xas olan xüsusiyyətləri nəzərə almadan yaradıla bilməz. Keyfiyyətin idarəolunması sahəsində aparıcı mütəxəssislər hesab edirlər ki, keyfiyyət sahəsində, orta hesabla təşkilati problemlərin 95%-i məhz insan faktorundan, onun motivasiyasından, obrazlı düşünmə tərzindən, təfəkkürün inkişaf səviyyəsindən asılıdır [12, 13, 14]. Bununla bağlı, keyfiyyət menecmenti sistemində idarəetmə üslubu və təşkilati mədəniyyət xüsusi məna daşıyır.

Keyfiyyətin və kadrların idarəolunma prosesində inteqrasiya yeni rəhbərlik üslubuna keçidin əsasında durur. Ənənəvi rəhbərlik üslubundan fərqli olaraq, yeni rəhbərlik üslubunda heyətin idarəolunması müasir yanaşmalar əsasında aşağıdakılar nəzərə alınaraq həyata keçirilməlidir:

- təhsil müəssisəsinin pedaqoji heyəti (bütövlükdə işçi heyət) birlikdə çalışır və onların fəaliyyət sahəsinə birbaşa daxil olmayan işlərin yerinə yetirilməsində də kollektiv fəaliyyətə üstünlük verilir;
- sifarişçi kadr hazırlığına dair təhsil müəssisəsi ilə əlaqələri yeni yanaşmalar əsasında qurur;
- səlahiyyətlilik və məsuliyyətlilik (cavabdehlilik) kollektiv xarakter daşıyır;
- dəyişikliklər və əlaqələr sistemi sürətli və mütəzəm həyata keçirilir;
- idarəetmə qurumlarının sayı mümkün qədər aşağı salınır.

Keyfiyyətin idarəolunmasının banisi və nəzəriyyəçisi yaponiyalı alim İsikava Kaoruya görə idarəetmə ilə bağlı təhsil müəssisələrində müxtəlif xarakterli qurumların yaradılmasında aşağıdakı prinsiplərə riayət olunmalıdır [7,13]:

➢ könüllülük prinsipi;
➢ özünüinkişaf prinsipi;
➢ qruplarla fəaliyyət prinsipi;
➢ keyfiyyətin idarəedilməsinin statistik metodunun tətbiqi prinsipi;
➢ təhsil müəssisəsində işçi şəraitinin yaradılma səviyyəsi ilə idarəetmə qurumları arasında qarşılıqlı əlaqələrin yaradılması prinsipi;
➢ işgüzar aktivlik və fasiləsiz fəaliyyət prinsipi;
➢ qarşılıqlı inkişaf prinsipi;
➢ yenilikçilik (novatorluq) və yaradıcılıq axtarışlarının dəstəklənməsi prinsipi;
➢ son nəticələrin qəbulunda iştiraketmə prinsipi;
➢ marketinq sahəsində təhsil müəssisəsinin son məhsulunun keyfiyyətinin daimi yüksəldilməsi sahəsində səmərəli fəaliyyət prinsipi.

Beləliklə, keyfiyyət probleminin həllində insanın rolunun böyük əhəmiyyət daşıdığı aydın göründüyündən, istənilən təhsil müəssisəsində keyfiyyətin idarə-

olunma sistemində, onun marketinq və bazarla bağlı digər fəaliyyətinin formalaşmasında hökmən insan faktorunun müxtəlif xüsusiyyətləri nəzərə alınmalıdır.

Araşdırmalar göstərir ki, keyfiyyətin idarəolunmasının təşkilati-texnoloji metodları içərisində keyfiyyətin idarəolunmasının statistik metodu xüsusi yer tutur. Prosesdə keyfiyyət göstəricilərinin statistik tənzimlənməsi birbaşa prosesə müxtəlif təsirlər vasitəsilə həyata keçirilir. Şəkil 4-də keyfiyyətin statistik tənzimlənməsinin sadələşmiş sxemi göstərilmişdir [1,2,11].



Şəkil 4. Keyfiyyətin statistik tənzimlənməsinin sadələşdirilmiş sxemi

Keyfiyyətin idarəolunmasının statistik metodunda keyfiyyət göstəricisini xarakterizə edən funksiyanın P (Π), əvvəldən qəbul olunmuş diapazonda normal paylanmadan kənara çıxmaların səviyyəsini göstərən parametrdən (P± δ) asılı olaraq normal paylanma əyrici şəkil 5-də göstərilmişdir. Burada "δ" parametrin normal paylanmadan kənara çıxma ehtimalını göstərir.



Şəkil 5. P (Π) funksiyasının (Π±6) – parametrindən asılı olaraq dəyişməsi

Şəkil 5-dən görünür ki, prosesdə keyfiyyətin stabilliyinin təmin olunması üçün, P- parametrinin nominal qiymətdən kənara çıxmaları həmin parametrin texniki sənədlərdə tələb olunan qiymətindən çox fərqlənməməlidir, təxminən (4-5%) fərqlənə bilər. Xüsusi olaraq qeyd etmək istəyirəm ki, keyfiyyətin təhlili və yaxşılaşdırılması üçün Pareto və İsikaba metodundan geniş istifadə etmək lazımdır [6,12,13]. Təhsil müəssisəsində maarketinq fəaliyyətini uğurla həyata keçirmək üçün onun məhsulunun, yeni müxtəlif xarakterli təhsil proqramlarının, qiymətləndirmə ilə bağlı müxtəlif işləmələrin, bizneslə bağlı digər fəaliyyətlərin və s. keyfiyyətinə ciddi nəzarət həyata keçirilməli, onun rəqabətədavamlılığı təmin edilməlidir [2,4].

Təhsil müəssisəsində keyfiyyətin idarəolunmasının son nəticəsinin təhlili göstərir ki, keyfiyyətin təmin olunmasının motivi, eyni zamanda iqtisadi faktorlarla bağlıdır. Keyfiyyətin səmərəli idarəolunması və təhsil müəssisəsinin əldə etdiyi əsas nailiyyətlər onun reytinqinin yüksəlməsinə, rəqabətqabiliyyətli mütəxəssislərin hazırlanmasına, tədris-təlim prosesinin məzmununun və onun bütövlükdə idarəedilməsinin səmərəliliyinin artırılmasına xidmət etdiyindən, təhsil müəssisəsinin həm də iqtisadi cəhətdən inkişafına gətirib çıxarır. Ona görə də müasir şəraitdə təhsil müəssisəsinin iqtisadi cəhətdən inkişafı, eyni zamanda onun hazırladığı mütəxəssislərin rəqabətədözümlülüyü ilə müəyyən edildiyindən aşağıdakı tələblərin yerinə yetirilməsi təmin olunmalıdır:

- istehlakçının bütün tələbləri təmin edilməli;
- fəaliyyət cəmiyyətin tələblərinə, ətraf mühitinin qorunmasına və təhlükəsizliyin təmin olunmasına cavab verməli;
- təhsil standartlarının və kadr hazırlığı ilə bağlı pedaqoji-psixoloji tələblərin yerinə yetirilməsi təmin edilməli;
- istehlakçı ilə əlaqələr, onların kadr təminatı müasir tələblər əsasında qurulmalı və iqtisadi cəhətdən səmərəlilik təmin olunmalıdır.

Keyfiyyətin idarəolunması ilə bağlı məsələlərin həllində təhsil müəsisəsində iqtisadi cəhətdən aşağıdakı iki problemin həllinə xüsusi diqqət yetirilməlidir:

- keyfiyyətin təmin olunmasında tələb olunan rəqabətəqabilliyin səviyyəsi məqsədəmüvafiqlik prinsipi əsasında müəyyən edilməlidir;
- keyfiyyətin qabaqcadan dəqiq müəyyənləşdirilmiş səviyyəsinə dair planlaşdırılmış məsələlərin həlli təmin olunmalıdır.

Belə məsələlərin həllində tətbiq olunan metodologiya və kriteriyalar klassik iqtisadiyyatın elmi əsaslarına söykənməlidir. Keyfiyyət kateqoriyaları və təhsil müəssisələrinin marketinq fəaliyyəti ilə bağlı istehlak qiymətlərinin qarşılıqlı tənzimlənməsi də müəyyənləşdirilməlidir. Qeyd etmək lazımdır ki, təhsil müəssisəsinin marketinq fəaliyyətində istehlak qiymətlərinin (faydalılıq səviyyəsinin) dəyişməsinin tənzimlənməsi keyfiyyətin təmin olunmasında iqtisadi effektivliyin əsas göstəricisi hesab edilir.

Araşdırmalar göstərir ki, keyfiyyətin idarəolunmasına sərf olunan məsrəflərinin tənzimlənməsi və metodologiyası ilə bağlı problemlərin həlli keyfiyyətin idarəedilməsi ilə məşğul olan alimləri və mütəxəssisləri həmişə maraqlandırmış və bu problemlər üzrə tədqiqatların intensivləşməsinə səbəb olmuşdur. Məsələn, keyfiyyətə nəzarət sahəsində Amerika cəmiyyəti (FQCS) təhsil müəssisəsində marketinq fəaliyyətinin təşkili ilə bağlı öz tərkibində keyfiyyətin təmin olunması üçün ayrıca komitet yaratmışdır. Keyfiyyətin idarəolunmasının iqtisadi cəhətdən effektivliyi klassik yanaşmaya analoji olaraq, keyfiyyətin idarə olunması nəticəsində qazanılmış nailiyyətlərin səmərəliliyini təmin etmək üçün sərf olunmuş məsrəflərin iqtisadi cəhətdən əsaslandırılmasına əsaslanır və təhsil müəssisəsinin rəqabətəqabilliyini müəy-

yənləşdirir [8, 9]. Beləliklə, təhsil müəssisəsində keyfiyyətin idarəolunmasının metodologiyasında bu problemin həllinin, həm də iqtisadi cəhətdən əsaslandırılması, həmin müəssisədə marketinq fəaliyyətinin rəqabətqabillik göstəricilərinin yüksəldilməsinə gətirib çıxarır və müəssisənin reytinqinin yaxşılaşmasına səbəb olunur. Bu halda keyfiyyətin menecment sistemi müəssisənin idarəolunma sistemi ilə yüksək dərəcədə inteqrasiya olunur.

Təhsil müəssisələrində müasir tələblərə cavab verən mütəxəssislərin hazırlanması sahəsində aparılmış araşdırmalar göstərir ki, keyfiyyətin idarəolunmasının müxtəlif modelləri içərisində idarəetmənin struktur-funksional modeli də xüsusi yer tutur [1, 15, 16]. Bu modeldə əsasən peşə-ixtisas təhsili müəssisələrində səriştəli məzunların hazırlanmasını təmin edən əsas şərt kimi tədris-təlim prosesinə təsir edən faktorların və keyfiyyətin əsas daşıyıcısı olan blok formasında qurulmuş konstruksiyalar götürülür. Bu model üç blokdan – moduldan (hazırlığın səriştəli, kompetensiallı məzmunu; hazırlıq prosesinin texnoloji təminatı; hazırlığın elmi-metodiki təminatı) ibarətdir. Hər modul sərbəst struktura malik olub, bu modulların təbiqi prosesində keyfiyyətin təmin olunmasının izlənilməsi prosesində mütəmadi olaraq monitorinqlər həyata keçirilir [1].

Keyfiyyətin idarəolunması ilə bağlı yerinə yetirilmiş araşdırmalar göstərir ki, ümumtəhsil və peşə-ixtisas təhsili müəssisələrində səriştəli mütəxəssislərin hazırlanması haqqında kifayət qədər etibarlı informasiya almaq üçün təhsil müəssisəsində keyfiyyətin menecment sistemi və marketinq fəaliyyəti müasir tələblər səviyyəsində qurulmalı və dünya təcrübəsi nəzərə alınmalıdır. Belə yanaşma həm də daha effektli nəticələr almaq üçün tədris-təlim prosesində nəzərə alınmayan məqamların üzə çıxarılmasına və peşəkar fəaliyyətin məntiqinə daxil edilməsinə geniş imkanlar açır. Ona görə də Azərbaycan təhsil sisteminin strukturunda fəaliyyət göstərən təhsil müəssisələrində, müxtəlif səviyyələrdə müasir tələblərə cavab verən məzunların və mütəxəssislərin hazırlanmasının təmin olunması üçün tədris-təlim prosesinin səmərəli təşkili və keyfiyyətin idarəolunması ilə bağlı problemlərin həll edilməsində göstərilən yanaşmaların (modellərin) imkanlarından geniş istifadə olunması məqsədəmüvafiq hesab edilir. Bütün bunlar tədris-təlim prosesində keyfiyyətin təmin olunması və onun səmərəli idarəedilməsi üçün yeni pedaqoji və təlim texnologiyalarının, İKT-nin və interaktiv metodların prosesə gətirilməsində hökmən nəzərə alınmalı və idarəetmə sahəsində tədqiqatların intensivliyi artırılmalıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010, 516 səh.

2. Куртон Е.Б. Управление образованием в условиях рынка. М.: Новая школа, 1997, 144 стр.

3. Аветисов А.А. О системологическом подходе в теории оценки и управление качеством образование. // Квалиметрия человека и образование: методология и практика, М.: Наука, 1996, стр 54-62.

4. Качалов В.А Проблемы управления качеством в вузах. // Стандарты качество, М., 2000, №5, стр. 82-85, № 6, 7-9, 10, стр. 84-88.

5. Субетто А.Е. Качество образования: проблемы оценки и мониторинга. // М.: Образование, 2000, №2, стр. 62-66.

6. Силаева О.А., Брехова Т.Б. Управление качеством образования: методологические аспекты. // Управление инновационно – инвестиционными процессами, Орел, Орел ГТУ, 2002, Ч. ЫЫ., 325 стр.

7. Соколов В.М. Основы проектирования образовательных стандартов (методология, теория, практический опыт). М.: Педагогика, 1996.

8. Коротков Э.М.Система комплексной оценки качество образования специалиста. // Высшее образование в России, М.: 1995, № 2, стр.72-78.

9. Качалов В.А., Прудковский Б.Г. По поводу оценки качества. // Высшее образования в России, М.: 1999, №2, стр. 54-58.

10. Алдер Ю.В., Соловьев В.А. и другие. Повышение качества подготовки специалистов. // Образование, М., 2000, №2, стр. 68-72.

11. Аристов О.В. Конкуренция и конкурентноспособность. М.: Финстаршиндорм, 1999, 352 стр.

12. Крылова Г.Д. Зарубежный опыт управление качеством. М., Стандартов, 1992, 425 стр.

13. Jonti T. Buildinq, Total Quality: a Guide for Managjment London; Jhapman u Hall, 1993.

14. Mehrabov A.O. Tədris-təlim fəaliyyətinin metodologiyası: mahiyyəti, strukturu və prinsipləri. //ARTPİ-nin Elmi əsərləri, Bakı, 2010, №4, səh. 3-18.

15. Mehrabov A.O. Elmi fəaliyyətin metodologiyası və onun spesifik xüsusiyyətləri. //ARTPİ-nin Elmi əsərləri, Bakı, 2011, №1, səh. 3-12.

16. Mehrabov A.O. Elmi fəaliyyətin paradiqmaları pedaqogikanın metodoloji əsası kimi. Pedaqogika elminin inkişafında yeni mərhələ, Beynəlxalq Elmi-praktik konfransın materialları, Bakı, BDU, 2011, səh. 69-84

A.Мехрабов

Методологические вопросы обеспечения качества в образовательной системе

Резюме

Количество и качество, являясь философскими категориями, сопровождают человека и человечество в целом на протяжении всей его истории. Если философы определяют количество как категорию, выражающую внешнюю определенность объекта, то качество – философская категория, выражающая существенную определенность объекта, благодаря которой он является именно этим, а не иным. Кроме того, качество и количество взаимосвязанные категории, благодаря взаимовлиянию которых происходит развитие объекта. В статье рассматриваются основные поняти качества как объекта управления, методов его анализа, оценки и измерения, концептуальные основы и методология управления качеством. Полученные результаты анализированы на основе современных подходов, обобщены и подготовлены соответствующие выводы.

A. Mehrabov

The Methodological Issues of Quality Guarantee in Education System

Summary

The philosophical conceptions of quality and quantity have always influenced to people's life style through history. In this article the influence of quality conception to management objects, its analytic methods, estimation and quality management methodologies are investigated. The results are analyzed, generalized and recommended.

It is noted that great attention is paid to quality conception, methodology of quality manageement and fundamental investigations are increased nowadays.